# Emosional intellektin inkişafında bioloji və sosial şərtlərin rolu

**Zabitə İsayeva**
*Sumqayıt Dövlət Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının*
*baş müəllimi*
**E.mail:** Zabite66@box.az

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d., dos. K.B. Salamova

**Açar sözlər:** bioloji və sosial şərtlər, sintoniya, rasionalizm, nəzarət lokusu
**Ключевые слова:** биологические и социальные условия, синтония, рационализм, локус контроля.
**Key words:** biological and social conditions, sintonian, rationalism, control locus

Emosional intellekt insanın özünün şəxsi emosiyalarını və başqalarının emosiyalarını müşahidə edib bir-birindən fərqləndirmək, eləcə də əldə olunan informasiyalardan təfəkkürü və hərəkətləri idarə etmək üçün də istifadə olunur.

Şəkil 1-də emosional intellektin məzmunu açıqlanır:




Emosional intellekt problemi ilə bağlı aparılan psixoloji tədqiqatların təhlili onların inkişafında *bioloji* və *sosial şərtləri* araşdırmışlar:

* *Bioloji* (emosional qabiliyyətlərin irsi əlamətləri, təfəkkürün sağ yarımkürələr tipi və ekstraversiya);

* *Sosial* (uşaq yaşlarında sintoniklik, yetkinlik yaşlarında rasionalizmin qoyuluşu, uşağın özünüdərkinin inkişaf səviyyəsi, valideynlər arasında qarşılıqlı münasibətlərdə emosionallıq, valideynlərin təhsil səviyyəsi və ailənin büdcəsi, tərbiyənin gender xüsusiyyətləri, xarici nəzarət lokusu, möminlik [4].

Şəkil 1-də emosional intellektin inkişafında *bioloji şərtlər* əksini tapmışdır:




Emosional intellektin inkişafında *bioloji şərtləri* nəzərdən keçirək.

* *Emosional qabiliyyətlərin irsi əlamətləri.* Emosional qabiliyyət adaptasiyanın uğurluluq dərəcəsi ilə xarakterizə olunur. Yüksək inkişaf etmiş emosional qabiliyyətlərə insanın şəxsi tələbatlarının və cəmiyyətin maraqlarının bir-birinə uyğunluğunun təmin olunması xarakterik haldır. Zəif inkişaf etmiş emosional qabiliyyətlər əsasən irsi olmaqla o qədər də inkişaf etməmiş və emal olunmamış hissləri nəzərdə tutur.

* *Təfəkkürün sağ yarımkürələr tipi.* Müəyyən edilmişdir ki, riyaziyyatçılar ilə müqayisədə musiqiçilərdə emosional vəziyyət daha yaxşı identifikasiya olunmuşdur. "Bədii" tip insanlarda tələffüzdə nitqin düzgün ifadə edilməsi qabiliyyəti emosional kontekstində daha yüksəkdir. Onlar "təfəkkür" tipli insanlardan fərqli olaraq daha empatikdirlər.

* *Ekstraversiya.* Emosionallıq temperamentin əsas parametrlərindən olub onun təzahürü ekstravert tipli insanlarda üstünlük təşkil edir. Ekstravertlər bütünlükdə introvertlərə nisbətən daha dərin düşünürlər. Belə fərz etmək olar ki, bu da çox emosional informasiyaların təhlilinə aiddir.

Şəkil 2-də emosional intellektin inkişafında *sosial şərtlər* öz əksini tapmışdır:



*Emosional intellektin inkişafında sosial şərtləri* nəzərdən keçirək.

* *Sintoniya* emosional intellektin inkişafında mühüm şərt və onun komponentidir. Sintoniya ətrafdakı insanların emosiyalarını dərk etməklə bağlı olan instinktiv həmahənglikdir. Sintoniya anadangəlmə instinkt kimi nəzərdən keçirilir. O həm də anadangəlmə emosional mexanizm olub refleksin şərtsiz reaksiya tipidir [25].

Sintoniyanın inkişafı ilk növbədə, ətrafdakıların uşağın hərəkətlərinə emosional reaksiyaları ilə bağlıdır, bu uşağın özünəmünasibətini və özünə - qiymətləndirməsini istiqamətləndirir. Özünü realistik şəkildə qavramanın və özünütəyinetmənin əsası hələ erkən ontogenetik mərhələdə qoyulur, o, valideynlər tərəfindən uşağın qəbulu ilə müəyyən edilir.

Sintonik uşaq bir sıra maneələrlə rastlaşır. *Birinci maneə* valideynlərin övladlarına hiperonikası və onları həddindən artıq qiymətləndirməsidir. Habelə valideynlərin indiki şəraitdə uşaqlarına qayğısı, onlara həddindən artıq məhəbbəti, uşaqda böyüklərlə emosional əlaqə qurmağa cəhdin formalaşmamasıdır. *İkinci maneə* sintonik inkişafın təcrididir. Bu zaman uşaq ətrafdakılarla emosional əlaqə yaratmağa qadirdir, lakin onun ətrafdakılarla ziddiyyətlərinin yaranması buna maneə yaradır.

Sintoniklik uşağın psixi inkişafının zəruri mərhələsidir. Sintoniklik böyüklərdə saxlanılır, inkişafın pozulması bunu bir daha təsdiq edir. Məntiqin və təfəkkürün səbəb-nəticə əlaqəsində sintoniya empatiya ilə əvəz olunur. O, təkcə başqa insanların emosional vəziyyəti ilə deyil, həm də həmin emosional vəziyyətin dərk edilməsi ilə müəyyən edilir.

* *Yetkinlik yaşlarında rasionalizmin qoyuluşu.* Rasional təfəkkürün mexanizmi vasitəsiz hissləri azaldır. Bununla bağlı o, normal inkişafın gedişində reflekslərə meyllilik inkişaf edir. Sintoniklikdə yaranan zəifləmə xarici aləmdən asılı olmayaraq ətrafdakıların affektiv təsirinə müqavimət cəhdi ilə bağlıdır. Mənfi affektiv təsirlərə müqavimət ətrafdakı adamlara ardıcıl rasional münasibəti və baş verəcək hadisələri həyata keçirir.

Müəyyən edilmişdir ki, “uyğunsuz” emosiyalar (həyəcan, depressiya, qəzəb), “uyğun" (nigarançılıq əsəbiləşdirmə) emosiyalar, rasional təsdiqetmə emosional distressi azaldır və intensivliyi aşağı salır. Eyni zamanda bu dəyişikliklər irrasional inandırma təsiri altında fərqləndirilməmişdir.

* *Uşağın özünüdərketmənin inkişaf səviyyəsi.*Özünütənzimetmə mexanizmləri kimi sintoniklik şəxsiyyətin inkişafının erkən mərhələlərində təzahür edir. Şəxsi özünütənzimetmənin bütün sistemi özünüdərketmənin inkişafının səviyyələrində təməli qoyulur. Özünüdərketmənin inkişaf səviyyəsi şəxsi emosiyaların idarə edilməsi şərtləri qismində çıxış edir.

* *Valideynlər arasındakı qarşılıqlı münasibətlərdə emosionallıq.* Uşağın emosional rifahı üçün optimal şəraitin yaradılması ər-arvad arasındakı qarşılıqlı emosional münasibətlərin xarakterindən çox asılıdır.

* *Valideynlərin təhsil səviyyəsi və ailənin büdcəsi.* Bu göstəricilər nə qədər yüksək olarsa, yeniyetmələrin emosional intellekt səviyyəsi bir o qədər yüksəlir.

* *Tərbiyənin gender xüsusiyyətləri.* Emosional intellekt sferasında gender fərqləri qadınlarda şəxslərarası, kişilərdə isə şəxsiyyətdaxili göstəricilərdə təzahür edir. Böyüklər, xüsusən də kişi və qadınlar arasında emosional fərqlər uşaqların tərbiyəsinə yanaşmada özünü aydın təzahür etdirir.

* *Xarici nəzarət lokusu.* Tədqiqatın nəticələri göstərir ki, xarici nəzarət lokusuna malik sınalınanlar başqalarını, eləcə də özlərini bağışlamağa meyllidirlər. Daxili nəzarət lokusa malik olanlar isə tez-tez özlərini mühakimə edir, həmçinin başqalarını mühakimə edərkən situasiyaya qarşı senzitiv olurlar. Bu nəzarət bağışlamağa qabilliklə, şəxsi emosiyaların dərki

və idarə olunması, həmçinin inciyən adama münasibətdə empatiya ilə bağlıdır.

* *Möminlik.* Dindarlıq və emosional intellekt şkalasında yüksək qiymətləndirmə arasındakı qarşılıqlı əlaqə növbəti cəhətlərlə şərtləndirilir:

*Birincisi,* dindar fərdlərdə xarici nəzarət lokusu üstünlük təşkil edir.

*İkincisi,* dini tərbiyə şərtsiz məhəbbət hisslərinin inkişafını nəzərdə tutur.

*Üçüncüsü,* fəaliyyətin özünütəhlili və emosiyaların müşayiəti olmadan dini ayinlərə hazırlıq mümkün deyildir.

**Məqalənin aktuallığı**. Emosional intellekt sosial intellekt kimi insanın bioloji və sosial amillərlə səciyyələnir. Həmin amillər insanın yaradıcı potensialının inkişafında, təfəkkürünün formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bioloji və sosial şərtlər biri digərini şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** Emosional intellektin inkişafında bioloji və sosial şərtlərin rolu tədqiq edilmişdir. Elmi məqalədə emosional intellektin bioloji və sosial şərtləri ardıcıllıqla xarakterizə olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Bəylərov E.B. İstedadlı uşaqların psixoloji təminatı/ Bakı: Aspoliqraf, 2008.
2. Əlizadə Ə.Ə. İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər. Bakı: ADPU, 2005.
3. Mayer, J. D. Mayer-Salovey-Caruso Emotional Intelligence Test MSCEIT Text. / J. D. Mayer, P. Salovey, D. Caruso. User's Manual. – Toronto, Canada : Multi-Health Systems. 2002.
4. Мещерякова И.Н. Биологические и социальные предпосылки развития эмоционального интеллекта // Территория науки, 2008, № 9


**З. Исаева**

## Роль биологических и социальных условий в развитии эмоционального интеллекта

## Резюме

Эмоциональный интеллект, как и социальный интеллект, характеризуется биологическими и социальными факторами человека. В научной статье исследована роль биологических и социальных условий в развитии эмоционального интеллекта. Автор по праву подчеркивает, что биологические и социальные условия обуславливают друг друга. В научной статье последовательно охарактеризованы биологические и социальные условия эмоционального интеллекта.

**Z. Isayeva**

## The role of biological and social conditions in the development of emotional intelligence

### Summary

Emotional intelligence is characterized by biological and social factors such as social intelligence. In the scientific article, the role of biological and social conditions in the development of emotional intelligence has been explored. The author rightly notes that, biological and social conditions make one the other. In the scientific article the biological and social conditions of the emotional intelligence have been characterized sequentially.

**Redaksiyaya daxil olub:** 29.03.2019